***Hüseyn HATƏMİ***

## *HEYDƏR YOLU...*

O, nadir bir şəxsiyyət,
Dahilər dahisiydi.
Amalı Vətən, Dövlət,
Səsi Xalqın səsiydi.

Sevirdi insanları -
Hamını -
İnsan kimi
Ürəyi geniş idi,
Sonsuz asiman kimi.

Xalqla idi nəfəsi.
Tanıyırdı hər kəsi -
Kəlməsindən, sözündən,
Nur yağırdı üzündən,

Hər addımı yüksəliş,
Xalqa gördüyü hər iş,
Ellərdən güc alırdı,
Sabaha yol salırdı.

Düşmən sıxanda bizi,
Sağdan, soldan, hər yerdən,
Qorudu ölkəmizi -
Yeni faciələrdən.

Böyük qürur duyurdu,
Hər bir vətəndaşıyla.
Millət ayağa durdu,
Onun bir çağrışıyla.

Hər kəlməsi, hər sözü,
Müdrük el məsəlidir.
Qəlbinin odu, közü,
Azadlıq məşəlidir.

Azərbaycan kəlməsi,
Heç batmayan səsidir.
Ölkəmin yüksəlməsi,
Onun təntənəsidir,
Haqqın təntənəsidir.
Xalqın təntənəsidir.

Vətən eşqi qanında,
El sevgisi canında,
Nur saçır hər cahanda
Heydər Əliyev adı.
Onun Vətən, Xalq andı.

Bu ad hər an, hər yanda,
Millətimə bağlıdır.
Dövlətimə bağlıdır.
Dövlətin sükanında,
İlham Heydər oğludur!!!
İlham Heydər oğludur!!!

***Nəriman Süleyman oğlu***

## *Azərbaycan Əsgəri*

Əziz və hörmətli Prezidentimiz cənab İlham Əliyevin ALİ BAŞ Komandanı olduğu rəşadətli AZƏRBAYCAN ORDUSUNUN igid əsgərləri 2016-ci ilin I-4 aprel tarixlərində öz qüvvətini, qüdrətini, gücünü quduz, yağı düşmənə göstərdi. Amma, təəssüf ki, bəzi irticaçı, şovinist-millətçi dövlət rəhbərləri haqq savaşında zəfərimizin davam etdirilməsinə imkan vermədilər... Allah Vətənimizi, Xalqımızı, Müstəqilliyimizi, Dövlətimizi və Prezidentimizi ailəsi ilə birlikdə qorusun! Amin!

Ali Baş komandanın
Hər əmrinə müntəzir.
Uyğun bir məqam gəzir,
Qələbəyə tələsir,
Azərbaycan əsgəri!

Torpağımdan güc alır,
Düşmənlərdən öc alır,
Günü-gündən ucalır,
Azərbaycan əsgəri!

Güclüdür, qüdrətlidir,
Məqsədində qətidir.
Xalqımın qüvvətidir,
Azərbaycan əsgəri!

Mübarizdi, Alidi,
Ölməzliyin yoludu.
Yurdun igid oğludu,
Azərbaycan əsgəri!

Suda, göydə, quruda,
Düşməni yaxıb oda.
Tam məhv edib yağını,
Alıb Qarabağımı
Ucaltsın bayrağımı,
Azərbaycan əsgəri!
Azərbaycan əsgəri!